| Xəstəlik sinifi (XBT-10) | AB – Bəzi infeksion və parazitar xəstəliklər |
|---|---|

| İlkin versiyanın tərtibatçı (İSİM) | Kazımova Z. |
|---|---|

| XBT-10 rubrikası | Xəstəliklər |
|---|---|
| **A42.0** | Ağ ciyər aktinomikozu |
| **A42.1** | Abdominal aktinomikoz |
| **A42.2** | Boyun-üz aktinomikozu |
| **A42.8** | Digər aktinomikozlar |

## Müalicə

Antibiotiklərə qarşı həssaslığa uyğun olaraq ***Penisilin qrupuna aid olan preparatları, həmçinin Tetrasiklinlər, Aminoqlikozidlər, Sefalosporinlər*** maksimum gündəlik dozada 10-14 gün ərzində, əsasən prosesin kəskinləşməsi dövründə istifadə olunur. Anaeroblara təsir etmək üçün ***Metronidazol (Metronidazole) və Klindamisin (Clindamycin***) istifadə olunur.

Sulfonamid preparatları yaxşı iltihab əleyhinə təsir göstərir.

Aktinolizat ilə xüsusi immunoterapiya.

***Aktinolizat (Actinolizat)*** immunokompetent hüceyrələrin spesifik hüceyrədaxili reseptorları vasitəsilə immun sisteminə təsir edir, müxtəlif infeksion agentlərə qarşı anticisimlərin istehsalını stimullaşdırır, aktinomisetləri məhv edir, orqanizmin müqavimətini artırır, iltihabəleyhinə təsir göstərir, iştahı artırır, yorğunluğu aradan qaldırır və ümumi fəaliyyətə kömək edir.

Aktinolizat həftədə 2 dəfə, ə/d:

3 yaşa qədər uşaqlar üçün - 0,1 ml/kq;

3 yaşdan 14 yaşa qədər - 2 ml;

14 yaşdan sonra - 3 ml.

Kursun müddəti 20-25 inyeksiyadır. Kurslar arasındakı interval 1 aydır. Kursların sayı (2-dən 6-ya qədər) xəstəliyin formasından və şiddətindən asılıdır. Klinik bərpadan 1 ay sonra residivin qarşısını almaq üçün profilaktik kurs (5-15 inyeksiya) aparılır.

Aktinomikozun kompleks müalicəsinə həmçinin göstəricilərə görə bərpaedici və simptomatik dərmanlar - detoksifikasiya prosedurları, ultrasəs terapiyası və əməliyyatdan əvvəlki dövrdə - fistulaların antiseptik məhlullarla yuyulması daxildir. Eyni zamanda, yanaşı olan xəstəliklərin müalicəsi aparılır.

## Ədəbiyyat

https://www.lvrach.ru/2005/08/4532867

https://doc.ua/bolezn/aktinomikoz-bolezn-luchistogribkovaya